**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 22

**Bakı şəhəri** "10" aprel 2015-ci il

**"Vətəndaşların müraciətlərinə baxılması işinin gücləndirilməsi barədə"**

Vətəndaşların müraciətlərinə baxılması işinin gücləndirilməsi məqsədi ilə və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin 19.03.2015-ci il tarixli 14/474 nömrəli məktubuna əsasən

**ƏMR EDİRƏM:**

1. Səhiyyə Nazirliyinin tabeliyində olan idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

1.1. dövlət orqanları və digər qurumlarda nəzarətə götürülmüş müraciətlərə xüsusi diqqət yetirməklə, bütün daxil olan müraciətlər şəxsi nəzarətə götürülməklə qanunvericiliyə uyğun araşdırılması, tədbirlərin görülməsi və nəticəsi barədə məlumatın verilməsi təmin edilsin;

1.2. şikayətlərə səbəb olan halların dərhal aradan qaldırılması məqsədi ilə əməli tədbirlər görülsün.

2. Ümumi şöbənin müdiri L.Əlizadəyə tapşırılsın:

2.1. ərizə və şikayətlərin elektron qaydada qəbulu və rəsmi cavablandırılması işinin təkmilləşdirilməsi məqsədi ilə 10 gün müddətində konkret təkliflər təqdim edilsin;

2.2. vətəndaşların qəbulu qaydalarına, müraciətlərə baxılması müddətinə və onların dolğun cavablandırılmasını ciddi nəzarət edilsin;

2.3. hər ayın sonunda daxil olan müraciətlər təhlil edilsin və nəzarətdə olan ərizə və şikayətlərin icrası barədə məlumat aparatın rəhbəri Z.Mustafayevaya təqdim edilsin.

3. Səhiyyə Nazirliyinin struktur bölmə rəhbərlərinin aidiyyəti üzrə vətəndaşların qəbulu və müraciətlərə baxılması işinə şəxsən məsuliyyət daşıdıqları nəzərlərinə çatdırılsın.

4. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**